# Azərbaycan-İran əməkdaşlığı regionda sabitləşdirici amildir

## *Prezident İlham Əliyevin qonşu ölkəyə səfərinin nəticələri qarşılıqlı əlaqələrin inkişafında yeni imkanlar açır*

Azərbaycan Respublikasının yürütdüyü xarici siyasətdə qonşu ölkələrlə ikitərəfli əlaqələrin xüsusi yeri var. Rəsmi Bakı milli müstəqilliyin bərpasından bəri keçən dövr ərzində qonşuları ilə qarşılıqlı faydalı əməkdaşlığı dərinləşdirmək üçün ardıcıl səylər göstərmişdir. Təcavüzkar Ermənistan istisna olmaqla Cənubi Qafqaz-Xəzər bölgəsində yerləşən digər ölkələr də eyni məramı bölüşərək öz növbəsində Azərbaycan dövləti ilə bir-birinin daxili işlərinə qarışmamaq, dinc yanaşı yaşamaq kimi beynəlxalq hüququn təməl prinsiplərinə əsaslanan sıx əlaqələr qurmaq istiqaməti götürmüşdü. Belə bir cəhəti də nəzərə almaq lazımdı ki, sovet imperiyasının süqutundan sonra regionun siyasi xəritəsində meydana çıxmış müstəqil dövlətlər zəngin qarşılıqlı əməkdaşlıq təcrübəsinə malik idilər və onların yeni tarixi şəraitdə ikitərəfli əlaqələr yaratması üçün zəmin vardı. Lakin Türkiyə və İran kimi iri regional dövlətlərlə əməkdaşlığı sıfırdan başlamaq lazım idi. Bu vəzifəni həyata keçirmək müstəqil Azərbaycan üçün o qədər də çətin deyildi, çünki bu üç ölkənin xalqlarının ortaq mədəni dəyərləri bölüşməsi ikitərəfli təmaslar qurmağa kömək edirdi.

Qarşılıqlı əlaqələrdə zaman-zaman problemlər ortaya çıxsa da, möhkəm siyasi iradənin mövcudluğu onların tezliklə aradan qalxmasını şərtləndirdi. Nəticə etibarilə regional əməkdaşlıq mühiti bərqərar oldu, qarşılıqlı əlaqələr sabit inkişaf yoluna çıxdı. Belə bir mühitin formalaşması region dövlətlərinin milli maraqlarına cavab verməklə yanaşı, burada beynəlxalq əhəmiyyətli inkişaf layihələrinin reallaşdırılmasına şərait yaratdı.

İranla ikitərəfli əlaqələr Azərbaycanın bölgə ölkələri ilə qarşılıqlı əməkdaşlığında xüsusi çəkiyə malikdir. Tarixən iki ölkənin xalqları arasında mənəvi-mədəni əlaqələr sıx olmuşdur. Azərbaycanın milli müstəqilliyini bərpa etməsi xalqlararası münasibətlərlə yanaşı, dövlətlərarası əməkdaşlığı inkişaf etdirmək zərurəti yaratdı. İki dövlət də bu tarixi missiyanı yerinə yetirmək üçün əlindən gələni etdi, bütün sahələrdə qarşılıqlı faydalı əlaqələr yaratmaq üçün ardıcıl addımlar atdı. Azərbaycan və İranın müxtəlif səviyyəli rəsmi şəxslərinin müntəzəm olaraq qarşılıqlı səfərləri zamanı əldə edilən sazişlər ikitərəfli münasibətlərin mükəmməl müqavilə-hüquq bazasını yaratdı. İndiyədək imzalanmış 100-dən çox hökumətlərarası sənəd iqtisadiyyat, energetika, mədəniyyət, təhsil, elm, səhiyyə və digər sahələrdə qarşılıqlı əməkdaşlığın inkişafına imkan verdi.

Məlum olduğu kimi, dövlət rəhbərlərinin qarşılıqlı səfərləri ikitərəfli əlaqələrdə əhəmiyyətli rol oynayır. Bu mənada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin qonşu ölkəyə növbəti rəsmi səfəri ikitərəfli əlaqələrin genişləndirilməsi istiqamətində mühüm addım kimi yadda qaldı. Tehranda keçirilmiş görüşlər zamanı regionda və dünyada gedən proseslər müzakirə edildi, hər iki tərəfi maraqlandıran beynəlxalq problemlər ətrafında fikir mübadiləsi aparıldı.

Təbii ki, yüksək səviyyəli Azərbaycan-İran danışıqlarında əsas məqsəd ikitərəfli münasibətləri irəli aparmaqdır. Bu baxımdan səfərin yekunları ölkələrimiz arasında əməkdaşlığın geniş perspektivlərindən xəbər verir. Tehranda Azərbaycan və İran hökumətləri arasında on bir sənəd imzalandı. Tərəflər həm iki ölkənin, həm də regionun inkişafı naminə bir sıra konkret razılaşmalar əldə etdilər. Hər şeydən əvvəl Şimal-Cənub nəqliyyat dəhlizinin yaradılması işində əhəmiyyətli addım atıldı: Azərbaycan və İran cari ilin sonunadək Astara-Astara dəmiryolu xəttinin çəkilməsi barədə sazişə gəldilər. Bu, beynəlxalq nəqliyyat dəhlizinin bir reallıq kimi ortaya çıxması mənasına gəlir. Artıq gələn ildən etibarən yeni nəqliyyat infrastrukturu beynəlxalq ticarətin fəallaşmasına şərait yaradacaq.

Tərəflər energetika sahəsində əməkdaşlığa da xüsusi diqqət yetirdilər. Məlum olduğu kimi, İran Xəzər dənizinin Azərbaycan sektorunda neft-qaz yataqlarının istismarında iştirak edir. Danışıqlar zamanı bu sahədə əməkdaşlığı davam etdirmək qərara alındı. Prezident İlham Əliyevin vurğuladığı kimi, Xəzər ümumi sərvətdir, o, gələcəkdə də əməkdaşlıq, təhlükəsizlik və sülh dənizi olmalıdır. Energetika sahəsində əməkdaşlıq təkcə neft sənayesi ilə məhdudlaşmır. Azərbaycanın bu sahədə İranla gördüyü işlər digər qonşu ölkələrin də iştirakı ilə transmilli, regional layihəyə çevrilə bilər.

İran paytaxtında keçirilmiş danışıqların gedişində tərəflər həmçinin maliyyə, bank, sığorta, turizm, əczaçılıq və digər sahələrdə əməkdaşlığı inkişaf etdirmək üçün əlverişli şəraitin olduğunu qeyd etdilər. Elm və mədəniyyət sahələrində əlaqələrin dərinləşdirilməsi, xalqlar arasında gediş-gəlişin asanlaşdırılması məsələləri də müzakirə olundu.

Azərbaycan və İran rəhbərləri ikitərəfli əlaqələrlə yanaşı, üçtərəfli formatda gələcək əməkdaşlıq məsələlərini də müzakirə etdilər. Söhbət Azərbaycan-İran-Türkmənistan, Azərbaycan-İran-Rusiya, Azərbaycan-İran-Rusiya və Azərbaycan-İran-Türkiyə formatlarından gedir. Prezidentlər İlham Əliyev və Həsən Ruhani sözügedən formatlar çərçivəsində əməkdaşlığın əhəmiyyətini vurğuladılar. Bu, iki ölkənin regional əməkdaşlığa verdiyi dəyərli töhfə kimi qiymətləndirildi. Prezident İlham Əliyev haqlı olaraq nəzərə çarpdırdı ki, Azərbaycan-İran əməkdaşlığı regionda sabitləşdirici rol oynayır: “Bizim birliyimiz nə qədər güclü olsa, bölgədə təhlükəsizlik də bir o qədər yüksək səviyyədə qorunacaq”.

Bir sözlə, Prezident İlham Əliyevin Tehrana səfərinin nəticələri Azərbaycan-İran əməkdaşlığı üçün yeni perspektivlər açır. Səfər zamanı imzalanmış ikitərəfli sənədlərin reallaşıb hər iki xalqın, bütövlükdə regionun gələcəyinə xidmət edəcək.

Belə bir məqam da diqqəti cəlb edir ki, Azərbaycan liderinin Tehrana səfəri İrana qarşı uzun illər davam etmiş beynəlxalq sanksiyalar qaldırılandan sonrakı dövrə təsadüf edir. Yeri gəlmişkən, Azərbaycan sanksiyaları heç vaxt dəstəkləməmiş, əksinə, həmişə bu məhdudiyyətlərin əleyhinə çıxmışdır. Şübhə yoxdur ki, beynəlxalq sanksiyaların ləğv olunması və İranın dünya iqtisadiyyatına qayıdışı qonşu ölkənin xarici iqtisadi əlaqələrinin dirçəlməsinə şərait yaradacaq, o cümlədən Azərbaycan-İran əməkdaşlığının dərinləşməsinə təkan verəcək.

**_Allahverdi MEHDİYEV,_**
**_“Azərbaycan”_**